**Fitosanitar monitorinqlərin nəticəsinə dair məlumat**
**(7 avqust 2023)**

Agentliyin Qazax-Tovuz regional bölməsinin fitosanitar müfəttişləri Qazax və Ağstafa rayonları ərazisində yerləşən fındıq, alma, şaftalı, ərik və nektarin bağlarında monitorinqlər aparıb. Monitorinqlər zamanı bağlarda Aralıq dənizi meyvə milçəyi və şaftalı meyvəyeyəni zərərvericilərinin mövcud olub-olmamasını müəyyənləşdirmək məqsədilə delta tipli feromon tələlər asılıb. Həmçinin baxış keçirilən bağlardan torpaqda olan pestisidlərin qalıq miqdarını və zərərli orqanizmləri müəyyənləşdirməkdən ötrü laborator müayinələr üçün nümunələr götürülüb.

Eyni zamanda monitorinqlər çərçivəsində Qazax və Ağstafa rayonları ərazisindəki günəbaxan təsərrüfatlarında qəhvəyi mərmər bağacığına qarşı aqreqasiya tipli feromon tələlər quraşdırılıb və müxtəlif təsərrüfatlarda əvvəl quraşdırılmış tələlərə təkrar baxış keçirilib.